# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.


Mıxlıqovaq kəndi.


Tikanlı kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin avqust ayında səyyar qəbullar Tikanlı və Mıxlıqovaq kəndlərində keçirilmişdir. Bu qəbul zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



**"Qəbələ səsi".**

# Ağsaqqallar Şurasının hesabat konfransı

12 avqust 2026-cı il tarixində Qəbələ Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilmişdir. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildirmişlər. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ağsaqqalların ölkəmizin ictimai-siyasi həyatında rolundan, yaşlı nəslin nümayəndələrinə göstərilən dövlət qayğısından danışmış, gənclərin dövlətə, xalqa sədaqət ruhunda, zərərli təsirlərdən uzaq və sağlam əsaslar üzərində tərbiyəsi işində ağsaqqallara hər zaman böyük ehtiyac olduğunu diqqətə çatdırmışdır. Respublika Ağsaqqallar Şurasının sədr müavini, professor Vahid Novruzov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətimizin bugünkü inkişafında ağsaqqal və ziyalılarımızın rolundan söz açmış, Qəbələ Rayon Ağsaqqallar Şurasının bir illik fəaliyyətinin qənaətbəxş qiymətləndirildiyini qeyd etmişdir. Tədbirdə illik hesabat məruzəsi ilə çıxış edən Rayon Ağsaqqallar Şurasının sədri Mehman İsmayılov ötən dövr ərzində qurum tərəfindən həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə ətraflı məlumat vermiş, ağsaqqalların rayonun ictimai-siyasi və sosial-mədəni həyatındakı fəal rolunu vurğulamaqla yanaşı, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və qarşıda duran prioritet vəzifələrin icrası istiqamətində atılan addımları diqqətə çatdırmışdır.



Çıxış edənlər ölkəmizdə aparılan abadlıq-quruculuq işlərindən, həyata keçirilən qlobal layihələrdən danışmış, ictimai işlərdə rayon ağsaqqallarının yaxından iştirak etdiklərini vurğulamış, gənclərin ağsaqqal və ağbirçəkləri örnək kimi qəbul etməsi və ölkəmizdə ağsaqqallarla gənclər arasında mövcud qarşılıqlı hörmət olduğunu qeyd etmişlər.

# Vətəndaş qəbulları



İyul ayının 24-də və avqustun 7-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların qəbulu keçirilmişdir. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər rayon icra hakimiyyətinin başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideynləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# XV Beynəlxalq Qəbələ Festivalı - "GabalaFest"




***Qəbələ Beynəlxalq Musiqi Festivalı (Qabalafest) 2009-cu ildən etibarən Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilati köməyi ilə keçirilən böyük miqyaslı mədəniyyət hadisəsidir.***

***2009-cu ildə ilk dəfə təşkil olunan festival klassik musiqinin bölgələrdə təbliği və beynəlxalq musiqiçilərin Azərbaycana cəlb edilməsi məqsədi daşıyırdı. Tədbir zamanı Üzeyir Hacıbəyli adına Simfonik Orkestri və xarici qonaqlar çıxış etmişlər.***

***2010-2011-ci illərdə festival çərçivəsində gənc pianoçuların beynəlxalq müsabiqələri keçirilib. Qəbələ Mədəniyyət Mərkəzində və açıq hava səhnəsində simfonik, kamera musiqisi və muğam gecələri təşkil olunub.***

***2011-2015-ci illərdə kral Filarmoniya Orkestri(Böyük Britaniya), Vyana Kamera Orkestri, "Yeni Rusiya" Dövlət Simfonik Orkestri və İtaliya Kamera orkestrləri festivalda müntəzəm çıxış etməyə başlayıb.***

***2016 və 2019-cu illərdə Şərq və Qərb Musiqisinin Sintezi, bəstəkarların yubileylərinə (Qara Qarayev, Fikrət Əmirov, Niyazi, İohann Sebastyan Bax, Volfqanq Amadey Motsart və b.) həsr olunmuş xüsusi konsert proqramları tərtib edilib.***

***2020-ci ildə Qlobal COVİD-19 pandemiyası səbəbindən festival təxirə salınıb.***

***2021 və 2023-cü illərdə "Qəbələ:Zəfər Nəğmələri" və "Heydər Əliyev İli" kimi xüsusi mövzulara həsr olunmuş konsertlərlə festival yenidən fəaliyyətə başlayıb.***

***2024-cü ildə ənənəvi yay Beynəlxalq Musiqi Festivalı keçirilməyib. Növbəti festival 2025-ci ilin iyul ayına təsadüf edib. 2025-ci ildə festival iki mərhələdə baş tutub: Qış mövsümü və ənənəvi yay mövsümü. Festival tarixində bir ilk olaraq yay mövsümündən əvvəl, fevral ayında "Qış Nağılı" Beynəlxalq Musiqi Festivalı layihəsi təqdim olunub.***

***XV Qəbələ Beynəlxalq Musiqi Festivalı (Qabalafest 2026) 29 iyul-3 avqust 2026-cı il tarixlərində Qəbələdə keçirilib. Tədbir Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə baş tutub.***

***Festivalda Azərbaycanla yanaşı Almaniya, Avstriya, Qazaxıstan, Niderland, Özbəkistan, Rusiya və Vyetnamdan olan məşhur musiqiçilər, ifaçılar və ansambllar çıxış ediblər.***

***6 gün davam edən festival təkcə konsertlərlə məhdudlaşmayıb: ziyarətçilər üçün ödənişsiz ustad dərsləri(master klasslar), rəsm sərgiləri, sənətkarlıq və qastronomiya yarmarkaları, interaktiv yaradıcılıq zonaları təşkil olunub.***



***Açıq havada və Heydər Əliyev Konqres Mərkəzində simfonik orkestr konsertləri, xarici pianoçuların (Avstriya və Vyetnam təmsilçiləri) kamera musiqisi axşamları, həmçinin muğam və milli musiqi gecələri keçirilib.***

**(Ardı 4-cü səhifədə).**